


**NAĞDSIZ ALIŞ-VERİŞƏ SƏN DƏ QOŞUL!**

# NAĞDSIZ HESABLAŞMALARIN ÜSTÜNLÜKLƏRİ



*ÜMUMİ MƏLUMAT VƏ ANLAYIŞLAR*

# NAĞDSIZ HESABLAŞMALARIN ÜSTÜNLÜKLƏRİ

## *ÜMUMİ MƏLUMAT VƏ ANLAYIŞLAR*

Bakı 2013

*Bu buklet Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən hazırlanmışdır və əhali arasında nağdsız hesablaşmaların stimullaşdırılması, ödəniş kartlarından və POS-terminallardan istifadə qaydaları haqqında ümumi məlumat və maarifləndirmə məqsədi daşıyır.*

**Əlavə məlumat üçün müraciət edə bilərsiniz:**

***Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195)***

*Çağrı Mərkəzinə (195) müraciət etmək üçün respublikanın istənilən regionundan stasionar telefonlardan birbaşa "195" nömrəsini, "Azercell" və "Nar Mobile" mobil nömrələrindən "195", "Bakcell" nömrəsindən isə "012 195" yığmaqla əlaqə yarada bilərsiniz.*

***Habelə göstərilən internet ünvanlara***

*www.taxes.gov.az*

*www.millikart.az*

*www.azericard.com*

# Mündəricat

## NAĞDSIZ HESABLAŞMALAR

*Nağdsız ödəniş nədir?*
*Ödəniş kartları*
*Beynəlxalq ödəniş sistemləri*
*Ödəniş kartlarının üstünlükləri*

## POS-TERMİNAL

*POS-terminalın quruluşu*
*POS-terminaldan istifadə qaydaları*
*Pos-terminalla aparılan əməliyyatlar*

# NAGDSIZ HESABLAŞMALARIN ÜSTÜNLÜKLƏRİ



# NAĞDSIZ ÖDƏNİŞ

Nağdsız ödəniş pul nişanlarından istifadə etmədən pul vəsaitlərinin bir bank hesabından digər bank hesabına köçürülməsi vasitəsilə həyata keçirilən hesablaşmadır.

Nağdsız ödənişlər vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapı, daşınması, saxlanması və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında, nəticədə isə iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır.

Nağdsız hesablaşmaların ödəniş kartları, bank köçürmələri, çeklər və s. kimi müxtəlif növləri mövcuddur. Onlardan ödəniş kartlarını xüsusilə qeyd etmək lazımdır.

## Ödəniş kartları

Ödəniş kartı malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, öz hesabından digər şəxsin hesabına pul vəsaitinin köçürülməsi, habelə nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş alətidir.

İnkişaf etmiş ölkələrdə alış-verişin təxminən 80-85 faizi ödəniş kartı vasitəsi ilə aparılır. Dünyada 1,5 milyarda yaxın ödəniş kartları mövcuddur.

Artıq bir neçə ildir ki, ölkəmizdə də ödəniş kartlarının tətbiqinə başlanmış və bu kart istifadəçilərinin sayı ilbəil artmaqdadır. Hal-hazırda Azərbaycanda 4,5 milyona yaxın ödəniş kartı istifadə olunur. Əksər müəssisə və təşkilatlarda, təhsil və səhiyyə sahəsində işləyənlərin əmək haqları, pensiya və müavinətlər həmin şəxslərin bank hesablarına daxil olur. Onlar da bu vəsaitdən ödəniş kartları vasitəsilə müxtəlif əməliyyatlar aparırlar.

## Əməliyyatların aparılmasına görə ödəniş kartları iki yerə bölünür:

debet kartlar - kart sahibinə hesabında olan pul vəsaiti həcmində əməliyyat aparmaq imkanı verən kartdır.

kredit kartlar - kart sahibinə müəyyən olunmuş şərtlər və limit daxilində məhsul və xidmətlərin alışını reallaşdırmaq və hesabda kifayət qədər pul olmadıqda kredit əldə etmək hüququ verən kartdır.

Ödəniş kartları onda olan məlumatın saxlanılması və oxunmasına görə maqnit lentli və ya çipli olur.

# Ödəniş kartının forması




Hər bir ödəniş kartının üz tərəfində kart növündən asılı olaraq kartı buraxan bankın loqosu (1), çipi (2), holoqram (3), 16 rəqəmli emboss (döyülmüş) olunmuş kart nömrəsi (4), beynəlxalq ödəmə sisteminin loqotipi (5), kartın istifadə müddəti (6), kart sahibinin adı, soyadı (7), arxa tərəfində isə maqnit lent (1), kart sahibinin imzası (2), CVV/CVC - üç və ya dörd rəqəmli müdafiə kodu (3) olmalıdır.

# BEYNƏLXALQ ÖDƏNİŞ SİSTEMLƏRİ

Visa İnternational, MasterCard İnternational, American Express və digər beynəlxalq ödəniş sistemləri vasitəsilə ödəniş kartlarından tək ölkədaxili deyil, dünyanın əksər ölkələrində əməliyyat aparmaq mümkündür.

Eyni ödəniş sisteminə aid olan kartlar xüsusiyyətlərinə görə fərqlənir.

Məsələn: Visa Electron / Maestro - bu plastik kart növləri debet rejimində işləyir və banklardan, bankomatlardan (ATM) nağd pul götürülməsi, POS-terminal quraşdırılmış pərakəndə ticarət, iaşə, digər xidmət obyektlərində ödənişlərin aparılması və kommunal xidmətlərin dəyərini ödəmək üçün istifadə edilə bilər. Bu kartlar dünyada ən geniş yayılmış kartlarıdır.

Visa Classic / MasterCard Standard - bu klassik kartlar istər debet, istərsə də kredit rejimində işləyir. Visa Electron / Maestro kartlarının bütün üstünlüklərindən əlavə aviabiletləri, mehmanxanalarda otaqları və s. kimi xidmətləri, internet vasitəsilə malları sifariş etmək imkanına malikdir.

Visa Gold / MasterCard Gold - qızıl kart öz sahibinin yüksək maliyyə mövqeyini göstərən elit kartdır. Bu növ kartlar bütün rejimlərdə işləyə bilir. Classic / Standard kartların bütün üstünlüklərindən istifadə etmək və kartların müstəsnalığını nəzərə alaraq asanlıqla ən iri ödənişlər aparmaq mümkündür.

Visa Platinum / MasterCard Platinum - bu kartların sahibləri dünyanın ən nüfuzlu mehmanxanalarında, butiklərində, restoranlarında və s. mötəbər yerlərində müstəsna xidmət və güzəştlərə malik olur.

Göstərilən üstünlüklərdən başqa, hər bir bank öz kartlarına (müştərilərinə) bir sıra əlavə xidmətlər və əlverişli şərtlər təqdim edir. Məsələn, ölkədaxili alış-verişlərə görə güzəştlər və hədiyyə bonusları, kartda olan məbləğin qalığına depozit faizlərinin hesablanması və s. Odur ki, kart seçməzdən öncə onun vasitəsilə ən çox hansı əməliyyatın aparılacağı müəyyənləşdirilməlidir.

## Ödəniş kartlarının üstünlükləri

Ödəniş kartlarının çoxsaylı imkanlarına baxmayaraq, Azərbaycanda onlardan əksər hallarda hesabda olan vəsaitin bankomat vasitəsilə nağdlaşdırılması üçün istifadə olunur. Halbuki, ödəniş kartlarının bir sıra unikal üstünlükləri mövcuddur.

### Pul vəsaitinin istifadəsinin daha rahat olması

- ticarət mərkəzlərində məhsul və xidmətlərin dəyərinin ödənilməsi;
- konvertasiya əməliyyatı zamanı əməliyyatların istənilən valyutada həyata keçirilməsi;
- səyahət zamanı nağd pulla bağlı ehtiyacların ödənilməsi;
- gömrükdən keçirilən pul vəsaitlərinin bəyan edilməsinə ehtiyacın qalmaması;
- hesabda pul olmadıqda, tez bir zamanda hesabın bank vasitəsilə artırılması.

### Təhlükəsizlik

- ödəniş kartının itməsi və ya oğurlanması zamanı bankı vaxtında məlumatlandırmaqla pul vəsaitlərindən istifadənin qarşısının alınması.

**DİQQƏT!**

**Ödəniş kartının təhlükəsizliyi üçün PİN- kod kart sahibi tərəfindən məxfi saxlanmalıdır.**

### Vaxta qənaət

- fərqli ödənişlərin eyni vaxta evdən və ya iş yerindən ayrılmadan yerinə yetirilməsi;
- vergilərin, rüsumların və digər büdcə ödənişlərinin, kommunal xərclərin (işıq, qaz, su, telefon və s.) internet vasitəsilə ödənilməsi;
- elektron ödənişlərin qısa müddətdə şəxsi vərəqədə əks olunması;
- mehmanxana nömrələrinin öncədən sifariş edilməsi;
- avia biletlərin və digər mal və xidmətlərin internet vasitəsi ilə alışı.

### Şəxsi büdcənin səmərəli planlaşdırılması

- pul vəsaitinin daxil olması və xərclənməsi barədə hesabatın əldə edilməsi;
- hesabda olan vəsaitlərə depozit faizlərin hesablanması;
- ödəniş kartı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə bonusların əldə edilməsi və ya xərclənən məbləğin müəyyən hissəsinin həyata keçirilən kampaniya çərçivəsində hədiyyə şəklində geri əldə etmək imkanının olması.

# POS-terminal



# POS-TERMİNAL

Ödəniş kartı ilə ticarət mərkəzlərində, mağazalarda, ictimai-iaşə obyektlərində aparılan ödənişlər elektron ödəniş aləti olan POS-terminal vasitəsi ilə həyata keçirilir.

POS-terminal kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, valyuta mübadiləsi əməliyyatlarının aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıqdır.

POS-terminal həm ödəniş kartı sahibləri, həm də biznes subyektləri üçün faydalıdır. POS-terminal üzrə əməliyyatlar həyata keçirilərkən bir qayda olaraq iki nüsxədə qəbz çap olunur. İmzalanmış qəbzin bir nüsxəsi təsərrüfat subyektində qalır, digəri isə kart sahibinə verilir. Bu qəbzin alınması malın dəyişdirilməsi, geri qaytarılması və istehlakçıların hüquqlarının müdafiəsi baxımından digər məqsədlər üçün zəruridir.




## POS-terminaldan istifadə vergi ödəyicilərinə nə verir?

ödəniş məbləğlərinin dəqiq olması və hesablaşmaların rahat aparılması;
qalıq məbləğin müştəriyə qaytarılması üçün kiçik əskinaslara ehtiyacın yaranmaması;
müştərilərin sayının artırılması;
nağd vəsaitlərlə olan əməliyyatlarda iş yükünün azaldılması;
inkassasiya xidmətlərinə olan ehtiyacın azaldılması;
mal və xidmətlər üzrə hesablaşmalar zamanı təhlükəsizliyin artırılması;
saxta pullarla hesablaşma riskinin aradan qaldırılması.

## POS-terminalların quraşdırılması

POS-terminalın quraşdırılması və istifadəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 oktyabr 2012-ci il tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları" və "POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları" ilə tənzimlənir. Bu qaydalara əsasən POS-terminallar quraşdırılacaq obyektlər aşağıdakılardır:

1) dövriyyəsindən və ərazisindən asılı olmayaraq Əlavə Dəyər Vergisi (ƏDV) ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri) (vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyata alındığı tarixdən);
2) dövriyyəsindən və ərazisindən asılı olmayaraq avtomobil və mebel satışı üzrə ixtisaslaşmış müəssisələr, idman və sağlamlıq kompleksləri, səhiyyə obyektləri, istirahət və əyləncə obyektləri, mehmanxanalar, şadlıq evləri, yanacaqdoldurma məntəqələri, hava, su, dəmiryol və avtomobil nəqliyyatı vasitələri ilə sərnişindaşımada biletlərin satışını həyata keçirən satış məntəqələri və turizm şirkətləri (təsərrüfat subyektinin (obyektinin) qeydiyyata alındığı tarixdən);
3) rüb üzrə orta aylıq dövriyyəsi 2000 (iki min) manatdan artıq olan vergi ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri) (ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiq edilməsi cədvəlinə uyğun olaraq)*;
4) hüquqi şəxslərə və fərdi sahibkarlara məxsus minik avtomobili ilə (taksi) sərnişin daşınmasını həyata keçirən nəqliyyat vasitələri (ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiq edilməsi cədvəlinə uyğun olaraq) *;
5) vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanları (ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiq edilməsi cədvəlinə uyğun olaraq) *.

* Bakı, Gəncə və Sumqayıt şəhərləri - 2012-ci il;

Abşeron, Mingəçevir, Şirvan, Şəki, Lənkəran, Yevlax, Bərdə, Naxçıvan, Quba, Xaçmaz, Masallı, Göyçay, Şamaxı, Zaqatala, Şəmkir, Tovuz,

Salyan, Sabirabad şəhər və rayonları (kənd və qəsəbələr istisna olmaqla) – 2013-cü il;

Digər rayon mərkəzləri (kənd və qəsəbələr istisna olmaqla) – 2014-cü il;

Azərbaycan Respublikasının bütün kənd və qəsəbələri – 2015-ci il.

Qaydalara uyğun olaraq vergi orqanları tərəfindən vergi ödəyicisinə məxsus POS-terminal quraşdırılması tələb olunan bütün təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması üçün müvafiq bildiriş göndərilir.

Diqqət!

Vergi ödəyicisi bildirişi aldıqdan sonra 10 (on) iş günü müddətində POS-terminalın quraşdırılması üçün bank ekvayerə müraciət etməlidir.

POS-terminalın quraşdırılması üçün vergi ödəyicisi tərəfindən banka aşağıdakı sənədlər təqdim edilir:

- vergi ödəyicisinin və ya dövlət orqanının qanuni təmsilçisinin şəxsiyyətini təsdiq edən sənədin surəti;
- vergi ödəyicisinin vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti;
- təsərrüfat subyektinin vergi uçotunu təsdiq edən sənədin surəti (obyektin kodu).

- Bank ekvayer vergi ödəyicisinin müraciətinə göstərilmiş sənədlər təqdim edildikdən sonra 3 (üç) iş günü müddətində baxır. Bu müddətdə ərzində bank ekvayer tərəfindən POS-terminalın quraşdırılması üçün texniki imkanların yoxlanması məqsədi ilə təsərrüfat subyektinə yerində baxış həyata keçirilə bilər. Bank ekvayer tərəfindən vergi ödəyicisinin müraciətinə müsbət baxıldıqda və müqavilə şərtləri üzrə razılıq əldə edildikdə, tərəflər arasında müvafiq müqavilə bağlanılır və 20 iş günü müddətində vergi ödəyicisinin müqavilədə nəzərdə tutulmuş təsərrüfat subyektlərində POS-terminal quraşdırılır.
- Bank ekvayer POS-terminal quraşdırıldıqdan sonrakı 2 iş günü müddətində bu barədə elektron daşıyıcısında POS-terminalın qeydiyyatı üçün vergi orqanına müraciət göndərir.

Bank ekvayerlə vergi ödəyicisi arasında bağlanmış müqavilədə aşağıdakılar əks olunmalıdır:

- tərəflərin kartların qəbulu və xidmət olunması üzrə hüquq və vəzifələri;
- bank ekvayerlə vergi ödəyicisi arasında hesablaşmaların aparılması qaydası və müddəti;
- kart vasitəsilə mal, iş və xidmətlərin dəyərinin ödənilməsi zamanı vergi ödəyicisinin əlavə haqq

təyin etməmək öhdəliyi;
- vergi ödəyicisi tərəfindən bank ekvayerə ödəniləcək xidmət haqqı və onun ödənilməsi qaydası;
- təsərrüfat subyekti tərəfindən kartların ödənişə qəbulu zamanı zəruri olan təhlükəsizlik tədbirləri;
- vergi ödəyicisi tərəfindən kartların ödənişə qəbul edilməsindən mümkün imtina halları;
- nəzərdə tutulmuş təhlükəsizlik tədbirlərinin və digər şərtlərin pozulması halında tərəflərin məsuliyyəti;
- kart vasitəsilə aparılmış əməliyyata görə ödənişin geri qaytarılması zamanı müştəri ilə müvafiq hesablaşmanın aparılması qaydası və müddəti;
- POS-terminal sıradan çıxdıqda, onun təmiri və ya əvəzedilməsi müddəti, həmçinin nasazlıqların aradan qaldırılması üzrə tərəflərin öhdəlikləri;
- müqavilənin dəyişdirilməsi və ləğv edilməsi qaydası;
- mübahisələrin həlli qaydası.

Göstərilən tələblər nəzərə alınmaqla bank ekvayer, vergi ödəyicisi və xidmət mərkəzi arasında üçtərəfli müqavilə bağlanıla bilər.

- Vergi orqanı 2 iş günü müddətində bank ekvayerin təqdim etdiyi məlumatlar əsasında POS-terminala qeydiyyat nömrəsi verir və müvafiq məlumatları elektron qaydada bank ekvayerə göndərir.
- Bank ekvayer vergi orqanından aldığı məlumatlar əsasında tərtib etdiyi POS-terminalın qeydiyyat nömrəsi haqqında məlumatı 2 iş günü müddətində vergi ödəyicisinə göndərir.
- Bank ekvayer 2 iş günü müddətində POS-terminalın qoşulması və xidmət göstərməsi üçün xidmət mərkəzinə müvafiq qaydada sifariş göndərir. Xidmət mərkəzi 2 iş günü müddətində POS-terminalın qoşulmasını təmin edir.
- POS-terminal xidmət mərkəzinə qoşulduqdan dərhal sonra vergi ödəyicisi POS-terminal vasitəsilə ödənişlərin qəbul edilməsini təmin edir.

### POS-terminalın quraşdırılmasından imtina halları

Bank ekvayer vergi ödəyicisinin təsərrüfat subyektində POS-terminalın quraşdırılmasından aşağıdakı hallarda imtina edə bilər:

- nəzərdə tutulmuş sənədlər tam və düzgün təqdim edilmədikdə;
- bank ekvayerin təsərrüfat subyektində quraşdırmaq üçün POS-terminalı olmadıqda;
- texniki səbəblərdən POS-terminalın quraşdırılması mümkün olmadıqda.

Bank ekvayer tərəfindən vergi ödəyicisinə POS-terminalın quraşdırılmasından imtina edildikdə, 3 gün müddətdə imtinanın səbəbləri qeyd edilməklə, bu barədə vergi orqanına və vergi ödəyicisinə məlumat göndərilir. Vergi ödəyicisi bank ekvayerdən imtina haqqında məlumat aldıqdan sonra 5 iş günü müddətində (texniki səbəblərdən POS-terminalın quraşdırılması mümkün olmadıqda 15 gün) imtinaya səbəb olan uyğunsuzluqları aradan qaldırmaqla, yenidən həmin banka və ya POS-terminalın quraşdırılması üçün digər bank ekvayerə müraciət edir.

### POS-terminalın qeydiyyatdan çıxarılması

Bank ekvayer aşağıdakı hallarda 3 iş günü müddətində POS-terminala verilmiş qeydiyyat nömrəsinin ləğv edilməsi üçün vergi orqanına müraciət etməlidir:

- vergi ödəyicisi ilə bank ekvayer arasında bağlanmış müqaviləyə xitam verildikdə;
- POS-terminal yenisi ilə əvəz edildikdə;
- vergi ödəyicisinin POS-terminal quraşdırılmış təsərrüfat subyekti  ləğv edildikdə.

Vergi orqanı POS-terminala verilmiş qeydiyyat nömrəsinin ləğv edilməsi üçün bank ekvayerdən müraciət daxil olduqdan sonra 3 iş günü müddətində qeydiyyat nömrəsini ləğv edir və banka bu barədə məlumat verir.

POS-terminal qeydiyyatdan çıxarıldıqdan sonra 3 iş günü müddətində vergi ödəyicisinin təsərrüfat subyekti fəaliyyət göstərdiyi və POS-terminalın quraşdırılma öhdəliyi qaldığı halda, həmin təsərrüfat

subyektində yeni POS-terminalın quraşdırılması üçün bildiriş göndərilir. Vergi ödəyicisi yeni POS-terminalın quraşdırılmasını təmin etməlidir.

## POS-terminaldan istifadə qaydası



Bank ekvayer vergi ödəyicisinin fəaliyyət növünə görə terminalda ödəniş kartları vasitəsilə əməliyyatların aparılması, beynəlxalq kartların xüsusiyyətləri və saxta kartların müəyyənləşdirilməsi üzrə tədris kursları təşkil edir və terminalın istifadəçisini gündəlik əməliyyatların aparılmasına dair yazılı təlimatla təmin edir.

Vergi ödəyicisi isə əməliyyatçının bank ekvayerlə bağlanmış müqavilənin şərtlərinə, o cümlədən təhlükəsizlik tədbirlərinə riayət etməsini təmin edir.

Vergi ödəyicisinin POS-terminal quraşdırılmış təsərrüfat subyekti ödənişə qəbul edilən kart təşkilatının müvafiq loqotipini kart sahibinin rahat görə biləcəyi yerdə yerləşdirir.

Vergi ödəyicisi kartlar vasitəsilə ödənişin qəbul edilməsi zamanı kart istifadəçisinə özündə aşağıdakı məcburi rekvizitləri əks etdirən qəbzin verilməsini təmin edir:

- bank ekvayerin adı;
- vergi ödəyicisinin adı və VÖEN-i;
- qəbzin nömrəsi;
- əməliyyatın tarixi (gün, ay, il) və vaxtı (saat, dəqiqə);
- xidmət mərkəzinin adı;
- POS-terminalın kodu;
- ödənişin məbləği;
- kartın təhlükəsizlik tələbləri çərçivəsində icazə verilən rekvizitləri;
- avtorizasiya kodu.

POS-terminal vasitəsilə dövlət büdcəsi və büdcədənkənar vəsaitlər üzrə mərkəzləşdirilmiş (vahid) xəzinə hesabına ödənişlərin aparılması zamanı qəbzdə büdcə təşkilatı və ya büdcədənkənar dövlət

fondunun rekvizitləri, büdcə gəlirlərinin təsnifatı və büdcə səviyyəsinin kodu qeyd edilir.

Əməliyyata başlamazdan əvvəl Pos-terminalın vergi ödəyicisi ödəniş kartının həqiqiliyini yoxlamalı, lazım olduğu halda kart sahibindən şəxsiyyətini təsdiq edən sənədin təqdim edilməsini tələb etməlidir.

Təhlükəsizlik tələblərinə müvafiq olaraq, vergi ödəyicisi qəbzin kart sahibi tərəfindən imzalanmasını tələb edə bilər.

Aşağıdakı hallarda Pos-terminalın vergi ödəyicisi bank ekvayer tərəfindən təqdim olunmuş təlimata uyğun olaraq tədbirlər görməlidir:

1) terminalda əməliyyatın aparılması zamanı çap olunmuş qəbzdə kart sahibinin imzasının ödəniş kartının üzərində qeyd olunmuş imza ilə uyğunsuzluğu aşkar edildikdə;
2) terminalda əməliyyatın aparılması zamanı texniki nasazlıq səbəbindən əməliyyatın başa çatdırılması mümkün olmadıqda;
3) terminalın istifadəçisi ödəniş kartının stop-listə (əməliyyatları dayandırılmış və ləğv edilmiş kartların daxil edildiyi siyahı) daxil olunmasını müəyyən etdikdə.

Vergi ödəyicisi qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla kart, kart istifadəçisi, habelə aparılmış əməliyyatlar haqqında ona məlum olan məlumatların məxfiliyinin qorunmasını təmin edir.

İş gününün sonunda vergi ödəyicisi bank ekvayerlə aralarında bağlanmış müqaviləyə uyğun olaraq xidmət mərkəzinə (və ya ekvayer banka) sorğu göndərərək, gün ərzində aparılmış əməliyyatları üzləşdirir. Hər hansı uyğunsuzluq aşkar olunduqda, bu barədə xidmət mərkəzi (və ya ekvayer bankı) məlumatlandırılır və aradan qaldırılması üçün müvafiq tədbirlər görülür.

Vergi ödəyicisi kartlar vasitəsilə ödənişin qəbul edilməsi üçün təsərrüfat subyektlərində POS-terminalların işlək vəziyyətdə olmasını təmin edir və hər hansı nasazlıq baş verdikdə, bu barədə bank ekvayeri (və ya xidmət mərkəzini) dərhal məlumatlandırır.

POS-terminalda nasazlıq baş verdikdə, bank ekvayer və ya vergi ödəyicisi (POS-terminal vergi ödəyicisinin mülkiyyətində olduğu halda) 5 iş günü müddətində POS-terminalın işlək vəziyyətə gətirilməsini təmin edir. POS-terminalın təmiri daha çox müddət tələb etdikdə, bank ekvayer və ya vergi ödəyicisi təsərrüfat subyektini yeni POS-terminalla təmin edir.

## Əməliyyatlar (POS-terminalın modeli: Verifone VX 680)

### * SATIŞ (SALE) əməliyyatı

Bu əməliyyatdan ödəniş kartı vasitəsilə malların (işlərin, xidmətlərin) haqqının ödənilməsi üçün istifadə olunur.

1. İlkin olaraq müştərinin kartı maqnit zolağı aşağı sağ tərəfdə olaraq yuxarıdan aşağıya doğru terminaldan keçirilməlidir. Əgər çip kartı təqdim edilibsə, kart terminalın üzərində yerləşən müvafiq kəsiyə çip yuxarıda olmaqla, şaquli vəziyyətdə daxil edilir.

**Diqqət!**
**Əməliyyat bitməyənə qədər kartı kəsikdən çıxartmaq olmaz!**
**Çek kart kəsikdən çıxarılandan sonra çap olunacaq.**

2. Bundan sonra ekranda aşağıdakı yazılar əmələ gələcək:




"1" düyməsi sıxılmaqla SATIŞ (SALE) əməliyyatı seçilir.

3. Əməliyyatın məbləğini qəpiklə göstərilməklə daxil edilir və ENTER düyməsi sıxılır.

Misal: 5 manat daxil etmək üçün 500 yazılır.

4. Ekranda aşağıdakı yazılar əmələ gələcək:




Məbləği təsdiq etmək üçün ENTER düyməsi sıxılır.

İmtina etmək üçün CANCEL (X) düyməsi sıxılır.

5. ENTER düyməsi sıxıldıqdan sonra terminal müştərinin PİN-kodunu tələb edəcək. Bu halda terminal PİN-kodu daxil etməsi üçün müştəriyə verilir və ya müştərinin razılığı əsasında PİN-kodun daxil edilməsindən imtina etmək üçün CANCEL (X) düyməsi sıxılır. Terminala PİN-kod daxil ediləndən sonra yenidən ENTER düyməsi sıxılır.

6. Əməliyyat müvəffəqiyyətlə başa çatdıqdan sonra çek çap olunur və ya əməliyyat uğurla yerinə yetirilmədikdə ekranda əməliyyatın səhvi kodu göstərilir (misal üçün, kod 51 - hesabda kifayət qədər vəsait yoxdur).

7. Birinci çek çap olunduqdan sonra ENTER düyməsi sıxılmaqla ikinci çek çap olunur.

Diqqət!
Çekin bir nüsxəsi müştəri tərəfindən imzalanaraq kassirdə qalır, digər nüsxəsi isə kart ilə birlikdə müştəriyə qaytarılır.

* İMTİNA (CANCEL) əməliyyatı

Əməliyyatdan imtina olunduqda və ya məbləğ düzgün göstərilmədikdə, İMTİNA (CANCEL) əməliyyatından istifadə olunur.

1. Müştərinin kartı maqnit zolaq aşağı sağ tərəfdə olaraq yuxarıdan aşağıya doğru terminaldan keçirilir. Əgər çip kartı təqdim edilibsə, kart terminalın üzərində yerləşən müvafiq kəsiyə çip yuxarıda olmaqla, şaquli vəziyyətdə daxil edilir.

Diqqət!
Əməliyyat bitməyənə qədər kartı kəsikdən çıxartmaq olmaz! Çek kart kəsikdən çıxarıldıqdan sonra çap olunacaq.

2. Ekranda aşağıdakı yazılar əmələ gələcək:



"2" düyməsi sıxılmaqla İMTİNA (CANCEL) əməliyyatı seçilir.

Əməliyyatdan imtina etmək üçün çekin üzərində olan 4 rəqəmli çek nömrəsi (CHEQUE NUMBER) terminala daxil edilir. Bundan sonra terminal imtina olunacaq əməliyyatı ekrana gətirir. Təsdiq etmək üçün ENTER ↵ düyməsi sıxılır.

3. Əməliyyat müvəffəqiyyətlə başa çatdıqdan sonra çek çap olunur və ya əməliyyat uğurla yerinə yetirilmədikdə ekranda əməliyyatın səhvi kodu göstərilir.

4. Birinci çek çap olunduqda sonra ENTER ↵ düyməsi sıxılmaqla ikinci çek çap olunur.

* Hesabat (SETTLEMENT) əməliyyatı

Hesabat (SETTLEMENT) əməliyyatı iş gününün sonunda POS-terminal üzrə aparılmış əməliyyatların sistemə daxil olması funksiyasını yerinə yetirir. Gün ərzində POS-terminal üzrə heç olmasa 1 əməliyyat olmuşdursa, bu əməliyyatdan istifadə olunması vacibdir. Hesabat (SETTLEMENT) əməliyyatı yerinə yetirmək üçün aşağıdakı ardıcıllığa əməl edilməlidir:

1) Günün bağlanması menyusuna daxil olmaq üçün ENTER ↵ düyməsi sıxılır.
2) Açılan menyuda 5 düyməsi sıxılmaqla XİDMƏT (SERVİCE) seçilir.
3) Hesabat ( SETTLEMENT) əməliyyatını seçmək üçün 1 düyməsi sıxılır.
4) Bundan sonra POS-terminal REPORT çekini çap edir və yenidən yüklənir.

POS-terminalın sonrakı istifadəsi üçün yeniləmə prosesi yekunlaşana qədər bir neçə dəqiqə gözləmək lazımdır.

## ƏLAVƏ ƏMƏLİYYATLAR

### Çekin surəti

Çap olunmuş çeklərin surətini çıxarmaq üçün ENTER ↵ düyməsi sıxılaraq menyuya daxil olunur. Bundan sonra 3 düyməsi sıxılmaqla ÇEKİN SURƏTİ (RECEİPT COPY) seçilir. Əgər sonuncu çap olunmuş çekin surəti lazım olduqda açılan menyuda 1 düyməsi sıxılır (LAST RECEİPT). Digər çeklərin surəti lazım olduqda isə 2 düyməsi sıxılır (BY RECEİPT NUMBER) və çekin 4 rəqəmli nömrəsi daxil edilir.

## Bloklama

### Diqqət!

POS-terminalı bloklamaq üçün ilkin olaraq ENTER, sonra 2 düymələri sıxılır. POS-terminalın blokdan çıxarılması üçün isə ENTER, sonra 2 düymələri sıxılır və 321123 şifrəsi daxil edilir.

## POS-TERMİNAL ÜZRƏ KOD SƏHVLƏRİ

### Visa/VisaElectron

04, 07, 41, 43 – kart itirilib/oğurlanıb/kart bank tərəfindən bloklanıb
01, 02 – kartı buraxan bank tərəfindən problem
05 – karta xidmət edilmir
51 – hesabda kifayət qədər vəsait yoxdur
54 – kartın istifadə müddəti bitib
55 – pin-kod səhv daxil edilib
57 – əməliyyat aparmaq kart sahibi üçün qadağan edilib
61, 65 – pos-terminal üzrə kifayət qədər vəsait çıxarma məhdudiyyəti
82 - CVV-kod səhv daxil edilib
77 – gündəlik hesabatın çıxarılmasında(settlement) səhv

### MasterCard/Maestro

04, 07, 41, 43, 33, 36, 37 – kart itirilib/oğurlanıb/kart bank tərəfindən bloklanıb
05 – karta xidmət edilmir
38 – pin-kod yığma məhdudiyyəti keçib
51 – hesabda kifayət qədər vəsait yoxdur
54 – kartın istifadə müddəti bitib
55 – pin-kod səhv daxil edilib
61, 65 – pos-terminal üzrə kifayət qədər vəsait çıxarma məhdudiyyəti
82 - CVV-kod səhv daxil edilib
77 – gündəlik hesabatın çıxarılmasında(settlement) səhv

Göründüyü kimi, nağd hesablaşma ilə müqayisədə ödəniş kartı vasitəsilə aparılan əməliyyatlar kart sahibinə çoxsaylı üstünlüklər təqdim edir. İnkişaf etmiş ölkələrdə ödəniş kartları gündəlik həyatda əvəzedilməz alətdir və öz sahibləri üçün rahatlıq, səmərəlilik və təhlükəsizlik simvoluna çevrilib. Azərbaycanda nisbətən yeni istifadə olunan ödəniş kartları gündən-günə populyarlıq qazanmaqdadır. Ölkəmizin iqtisadi inkişafı, innovativ islahatların aparılması və əhalinin rifahının yüksəlməsi öz növbəsində nağdsız ödəniş vasitələrinin geniş tətbiqini zəruri edir. Bu sahədə bizim hamımıza, istər dövlət orqanları, istərsə də ayrı-ayrı hüquqi və fiziki şəxslərin üzərinə böyük məsuliyyət düşür. Bunu nəzərə alaraq müəssisələr müasir ödəniş vasitələrindən istifadəni genişləndirməli, nağdsız ödənişlərin tətbiqinə üstünlük verməli və rəqabətə davamlı olmaq üçün obyektlərində POS-terminal quraşdırmalıdırlar.



**Əgər Sizin ödəniş kartınız varsa,
onda nağd pul daşımağınıza ehtiyac yoxdur!**




**Harada olmağınızdan asılı olmayaraq ödəniş və köçürmələrinizi bu kartlar vasitəsilə rahat və daha tez bir zamanda apara bilərsiniz.**